F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Peşəkar uşaq ədəbiyyatımızın məhsuldar nümayəndəsi İlyas Tapdıq**

**İlyas Tapdığın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2024**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Peşəkar uşaq ədəbiyyatımızın məhsuldar nümayəndəsi -** İlyas Tapdığın 90-illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2024. – 39s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## Giriş

Dahi Belinski deyirdi ki, "uşaq şairi olmaq yox, doğulmaq lazımdır". Son əlli ilin uşaq poeziyasını İlyas Tapdığın yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil. Osman Sarıvəllinin də dediyi kimi: "İlyas Tapdıq sözü danışdırmağı bilən şairdir. Onun şeir rübabı xalq ruhunda köklənib. Elə buna görə də onun poeziyası belə ürəkdən sevilir, alqışlanır." Bəli İlyas Tapdıq sözdən ilmə vurub, naxış toxuyub, poetik lövhələr yaradıb. O, söz sərrafı, söz zərgəri, söz rəssamıdır. Qüdrətli sənətkarın şeirləri tez - tez müxtəlif dərsliklərin səhifələrindən boylanır, məktəb səhnələrindən, uşaq bağçalarında keçirilən şənliklərdən, eləcə də radio dalğalarından, televiziya ekranlarından səslənir. İlyas Tapdığın uşaq şeirlərinin bu qədər sevilməsindəki ən mühüm cəhət onun uşaq ədəbiyyatının sirlərindən əlavə, uşaqların psixologiyasına, dünyasına dərindən bələdliyidir. O, bu şeirlərində nə forma, nə də məzmun axtarışına qapılmır. Hər ikisinin peşəkar şair intuisiyasından yaranan vəhdəti hələ uzun illər İlyas Tapdıq imzasını Azərbaycan uşaq ədəbiyyatında dərin ehtiramla yad etdirəcək əsərləri yaradıb. O, çox adi, hər kəs üçün normal görünəcək hadisələri şeirlərində son dərəcə incə və poetik dillə qələmə alıb. Onun "Meşənin mahnısı", "Çiçəklərim, güllərim" şeirlər-poemalar kitabları bir neçə nəslin yaddaşında həkk olunan poeziya örnəkləridir.Uşaqlar üçün yazmağın çətinlikləri çoxdur, məsuliyyəti ondan da böyükdür və İ.Tapdıq bu çətinlikləri və məsuliyyəti çox yaxşı duyurdu. O, yaxşı bilirdi ki, uşaqla uşağın öz dilində danışmaq lazımdır. İlyas Tapdığı öncə uşaq şeirlərinin yaradıcısı kimi tanınmış, sevilmişdir. Onu əksərən uşaq şairi kimi tanıyır və tanıdırlar. Halbuki 50 kitab müəllifi, mindən çox kitab redaktoru olan şairin poeziyasının əhatə və təsir dairəsi çox genişdir. Onun kövrək qələmi gah dünyanın gərdişini çözələyir, gah ən saf, ən munis insan hisslərinə aram-aram sığal çəkir, gah körpə balaların üzündə təbəssüm olur, gah təbiətin ən kiçik zərrəsinə belə qucaq açacaq qədər böyüyür, gah da canından, qanından, varlığından çox sevdiyi vətəninin adi daşını ömrünün günəşinə çevirir. Təşviqat qatarları ilə Azərbaycanın bir sıra şəhər və kəndlərində, alı məktəb auditoriyalarında, orta məktəb zallarında həmişə oxucular qarşısında öz şeirlərini oxumuş, onlarda yüksək vətənpərvərlik duyğuları aşılamış İlyas Tapdıq mütəmadi olaraq F.Köçərli adına Uşaq Kitabxanasında keçirilən tədbirlərdə iştirak etmiş, rəngarəng, təravətli şeirlərini körpələrimizə ərməğan etmişdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil olunan "Kitab karvanı İpək yolu ilə" adlı təbbirlərdə bir çox uşaq şair və yazıçılarımızla yanaşı sevimli şairimiz İyas Tapdıq da iştirak etmiş, sevə-sevə öz şeirlərini, nağıllarını, hekayə və povestlərini bölgələrimizdə yaşayan uşaqlara ərmağan

etmişdir. Həm lirik və həm də uşaq şairi kimi tanıdığımız İlyas Tapdığın bu il 90 yaşı tamam olur. Bu münasibətlə respublikamızın bir çox təhsil müəssələrində məktəblərdə, kitabxanalarda, lisey və gimnaziyalarda həmçinin F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

**Ustad haqqı qazanmış şair – İlyas Tapdıq**

İlyas Tapdıq bütün varlığı ilə öz yaradıcılığını uşaq ədəbiyyatının inkişafı və zənginləşməsinə sərf etmiş, Fərhad kimi külüngünü yerə qoymamışdır. Əlbəttə, uşaqlar üçün bir çox gözəl əsərlər yazmış İlyas Tapdığın uşaq ədəbiyyatımızın inkişafında və zənginləşməsində xüsusi və şərəfli xidmətləri olmuşdur. Yüzlərlə maraqlı uşaq şeirlərinin, onlarca mənzum nağıl və poemanın müəllifi İlyas Tapdıq 50 - ci illərdən bu günədək şeirləri uşaqların dilinin əzbəri olan bir şair olmuşdur. Onun "Təpələr", "Bildirçin", "Xalamın qızıyam", "Sevil küsüb", "Arı deyirmiş...", "Bir evim var", "Qoçaq dovşan", "Meşənin mahnısı", "Məktəbə gedəcəyəm", "Şıltaq günəş", "Boş yuva", "Günlərin adı", "Dəmirçi", Dostuluğun gücü", "Milsəner əmi" və onlarca maraqlı şeirləri uşaqların çox sevdiyi əsərlərdəndir.

Azərbaycan oxucusu "Bulaq başında", "Gözlər", "Xumar", "Arxalı dağlar" və s. kitabların müəllifi İlyas Tapdığı səmimi, lirik şeirləri ilə tanıyır. İlyas Tapdığın yaradıcılığı haqqında ədəbiyyatımızın görkəmli nümayəndələrindən Mir Cəlal, Süleyman Rəhimov, Osman Sarıvəlli, Məmməd Rahim, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Qasım Qasımzadə, Məmməd Araz, Nəriman Həsənzadə, Ələviyyə Babayeva, Məstan Günər, Nüsrət Kəsəmənli, Musa Ələkbərli, Zahid Xəlil geniş məqalələr yazmış, şairin yaradıcılığını yüksək qiymətləndirmişlər.

İlyas Tapdıq 1934-cü il noyabrın 30-da Gədəbəy rayonunun Əli İsmayıllı kəndində doğulmuşdur. Gədəbəyin Kiçik Qaramurad kəndində orta məktəbi bitirdikdən sonra APİ-nin dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1952–1956). Ədəbi yaradıcılığa tələbəlik dövründə "Azərbaycan" jurnalında dərc olunan "Bakının gecəsi" şerilə başlamışdır. Uşaqgəncnəşrdə redaktor (1957–1962), Azərnəşrdə redaktor, böyük redaktor (1962–1968), "Gənclik" nəşriyyatında böyük redaktor, redaksiya müdiri, baş redaktor (1968–1976), Azərbaycan Baş Mətbuat Müvəkkilliyində qrup rəhbəri (1976–1978), Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində televiziya gənclər baş redaksiyasının baş redaktoru (1978–1983), Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri (1989–1992), Türkiyənin Ankara şəhərində Türk Standartları İnstitutunda və Xarici İşlər Nazirliyi və kalkınma ajansında müəllim, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri (1992–1995) vəzifələrində işləmişdir.

İlyas Tapdıq Azərbaycan folkloru, Aşıq yaradıcılığı haqqında bir sıra sanballı məqalələr müəllifidir. Təsadüfi deyil ki, 1972-ci ildə çəkilən "Aşıq Ələsgər" sənədli filminin ssenarisini İlyas Tapdıq yazmışdır. "Aşıq Alı" pyesinin müəllifi kimi tanınan İ.Tapdıq Aşıq Şəmşir, Aşıq Kamandar, Hüseyn Saraclı, Aşıq Əmrah, Aşıq Ədalət, Əkbər Cəfərov haqqında da maraqlı məqalələr yazmışdır.

1989-cu ildən Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. "Gənclik" nəşriyyatı redaksiya şurasının üzvü, Azərbaycan komsomolu Şöhrət şurasının üzvü, "Türk əsrində Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü və Azərbaycan təmsilçisi olmuş, bir sıra respublika festival və müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur. Təşviqat qatarında dəfələrlə rayonlara getmiş, zəhmətkeşlər qarşısında çıxış etmişdir. 60-80-ci illərdə qardaş respublikalarda keçirilən ümumittifaq tədbirlərinə, yubileylərə, uşaq kitabı həftəsinə, müşavirələrə dəvət olunmuşdur.

Azərbaycan komsomolunun XXX, XXXI qurultaylarına nümayəndə seçilmişdir. Sovet uşaq ədəbiyyatı və incəsənəti nümayəndələri tərkibində Çexoslovakiyada (1972), Macarıstanda (1979) olmuşdur. Türkiyədə İzmir şəhərində I Uluslararası Türk dünyası Turizm və Kültür simpoziumunda iştirak etmişdir (1994).

Ürəyindən əməliyyat olunmuş şair 25 dekabr 2016-cı ildə axşam saatlarında Bakıda, evində vəfat etmişdir.

Ədəbi nəslimizin 50 - ci illərində ədəbiyyata gələn şair və nasirlərin ilk kitab sevincini görən nümayəndəsi o vaxt İlyas Tapdıq idi. İlyas Tapdıq yaradıcılıq illərində başqa ölkələrin bir çox görkəmli yazıçılarının da uşaqlar və böyüklər üçün yazılmış əsərlərini dilimizə çevirmişdir.

İlyas Tapdıq müasir uşaq ədəbiyyatının tanınmış nümayəndələrindəndir. Onun qələmə aldığı "Valideynlərə" şeirini oxuyarkən bunun şahidi oluruq.

Mən uşaq şairiyəm,

Uşaqlar ürəyimdir.

Şeir çəmənzarıma

Qonan kəpənəyimdir

Şirin nağılla yatıb,

Şən nəğməylə oyanan

Hər kəpənək lentli qız,

Hər şeir bilən oğlan,

Şeirimi, nağlımı,

Onlar üçün yazıram:

Övladımtək onları

Öz bağrıma basıram,

Cingiltili səsiylə

Onlar şeir deyəndə

Ürəkdən əl çalıram,

Qanadlanıram mən də.

Onlar yurdun sabahı,

Xalqın gələcəyidir:

Şeirlə dil açanlar

Dünyanı heyran edir.

Övlad xoşbəxtlik rəmzi,

Övlad şirin arzudur,

Uşaq üçün itən vaxt

Sabahın qayğısıdır.

Hər gün təzə kitabla

Sevindirin uşağı,

Kitab tutan əllərin

Sönməz olur çırağı!

Şairin uşaq əsərlərinin mühüm bir qismini yurdumuzun təbiətinə, gözəlliklərinə həsr olunmuş əsərlər təşkil edir. "Bildirçin" uşaqların çox sevdiyi, həvəslə əzbərlədiyi, söylədiyi əsərlərdəndir.

İlyas Tapdığın alliterasiyaya əsaslanan "Bildirçin" şeiri uşaq poeziyamızın nadir nümunələrindəndir. Bu şeirdə "bildirçin", "bildir", "bildir-bildir", "çildir" və başqa sözlər bir süjet ətrafında məharətlə birləşdirilib. Şeiri oxuyan hər bir uşaq ona yenidən qayıtmaq istəyir:

Bildir uçub bağçanı
Meşə bildi bildirçin.
Arzu çıxıb çığırdı
"Çildir, çildir" bildirçin
dedi:
Hanı quyruğun?
Mənə bildir, bildirçin.
Bəlkə pişik qoparıb
Neçə ildir, bildirçin.

Saf dili, axıcı və son dərəcə maraqlı sujetləri ilə seçilən bu uşaq şeirləri M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, R.Əfəndiyevlə başlayan uşaq poeziyamızın davamı kimi çox ibrətlidir.

"Dəmirağac" şeirində təbiətin möcüzəsi olan dəmirağacın xüsusiyyətləri poetik bir dillə bəhs edilir. "Bir evim var…" şeiri şifahi xalq ədəbiyyatının tapmaca janrında istifadə yolu ilə yazılmışdır. "Qaçaq dovşan" poemasının qəhrəmanı uşaqların çox sevdiyi dovşandır. Bu əsər uşaq ədəbiyyatımızda dovşana həsr olunan digər əsərləri təkrarlamır, orijinallığı ilə diqqəti cəlb edir. Əsərdə yırtıcı, hiyləgər heyvanlarla dostluq edən dovşan fərasətli, qoçaq, sayıqdır. Şairin yaradıcılığında vətən mövzusunda əsərlər mühüm yer tutur. Onun 20 yanvar şəhidlərinə həsr olunmuş "Bir şəhiddir ürəyim" şeirini həyəcansız oxumaq olmur.

İlyas Tapdığın "Bir şəhiddir ürəyim" şeirində o müdhiş gecənin dəhşətləri təsvir edilib:

Unudula bilərmi o gecəki səhnələr?
Bağlanmışdı Bakının qolları əsir kimi;
Tankların tırtılında od püskürdü sinələr,
Cəsədlər yastılandı qanlı bir həsir kimi.

Unudula bilərmi o gecki səhnələr?
Bağlanmışdı Bakının qolları əsir kimi.
Tankların tırtılında qan püskürdü sinələr,
Cəsədlər yastılandı qanlı bir həsir kimi.

Yağının qəsdi buydu susdursun haqq deyəni,
Mərhəmət qına girdi, mərmi həddini aşdı.
Silahsızın üstünə çəkdi zireh geyəni,
Gizli ölümlər daha küçələrə yol açdı.

Qaynayan meydanları atəşlə söndürdülər,
Yalançı qardaşlığın puç oldu aqibəti.
Beşikdəki körpəni silahla dindirdilər,
Hansı sözlə söyləyim qatillərə nifrəti!..

Gözlərindən qan damır doğan müdhiş səhərin,
Yerə sərilənlərin qana batıb saçları.
Nəfəsi qan qoxuyur nəşəli qatillərin,
Güllələyir evləri, yol boyu ağacları.

Qəzəbi bir mərmidir Bakının ürəyində,
Şəhidləri köksünə baş qoyan bir anadır.
Tankların izi qalır üzündə, biləyində,
Yaralı qardaş-bacı, sevgili yan-yanadır.

Yurdumda qəm libası gcyib çiçəklər, otlar,
Qan rəngində görürəm göyü, quşu, səmanı.
Günəşi gizləyibdi qana batan buludlar,
Qızarmayan bir şey var - yağıların vicdanı.
Dəyişmir öz hökmünü əsarətin qanunu –
Əmrindən çıxanları əzib soldurmaq istər.
İllərlə damarımdan sordu qara qanımı,
Boşaltdığı yerləri qanla dolduımaq istər.

Yurduna sahib çıxan millət verir qurbanlar,
Tariximə həkk etdi zaman silinməz qanı.
O gecə Bakımızda yaşanan həyacanlar
Bir əsr də qocaltdı anam Azərbaycanı.

Bir qəmli dastandı bu yaşayacaq min illər,
Yağıların əliylə yazılan qanlı yazım.
Bu günün nifrətini yaşadacaq nəsillər,
Yaşadacaq göz yaşı içən Kürüm, Arazım.

Qarabağ qara baxtım, xıncımlanan qeyrətim,
Yad ayağı altında solur gülüm, çiçəyim.
Vətən üçün öləni yaşadacaq Vətənim,
Min yerdən yara almış bir şəhiddir ürəyim

Burada qan rəngli bulud, zülmət, Bakının başına bağlanan qara yaylıq, yerlərin dediyi ağı, göylərin göz yaşı şəhidlik konseptinin birbaşa folklordan gələn semantik çalarlarıdır.

Sıyrılmış qılınc kimi
Zəhmli gözlər də var,
Yaz günütək mülayim
Rəhimli gözlər də var...

Göz var günəşdən odlu,
Göz də var kirpiyundən
Lülə-lülə asılan
Şimal buzu görmüşəm...

Hər şeyi görə -görə
Kor olan gözlər də var!
Öz yuvasından çıxıb
Başqasına göz olan
Gözlər də görmüşəm mən...

Göründüyü kimi, məhəbbət mövzusunda yazılan şeir bədii ümumiləşdirmə cəhətdən çox - çox geniş mətləblər əhatə edərək sırf realist və etik məzmun kəsb edir, oxucunu düşünməyə çağırır.

Aldığı mövzu və obyektlər bəzən yeni görünməsədə də, şairin münasibəti, işləmə üsulu yeni və maraqlıdır.

Şairin çap olunan əsərləri bir çox mükafatlara layıq görülmüşdür. Şairin "Bulaq başında", "Gözlər", "Bir eşqin şimşəyi", "Arxalı dağlar", "Meşənin mahnısı" və s. kitabları oxucular tərəfindən hədsiz rəğbətlə qarşılanmışdır.

Şairin uşaqlar və böyüklər üçün yazılmış onlarla şeirlərinə görkəmli bəstəkarlarımız bir çox musiqilər bəstələmişlər.

İlyas Tapdığı biz çoxdan, ədəbiyyata gəldiyi ilk gündən tanıyırıq. Onun şeirlərinin çoxunda həyati müdriklik və sadəlik var. Sözü sadə və yerində demək bacarığı var. Bu, keyfiyyət isə yaradıcılıqda ən çətin yoldur.

İlyas Tapdığın şeirlərini oxuyanda adama elə gəlir ki, bu şeirləri uşaqlar özləri qoşub. Ona görə ki, bunlar uşaqların özləri kim təbii, saf və sadədir.

Götür çiyninə
Dəyim budağa
Budağın üstə
Qaldır oturum.
Əlimdən burax,
Qoy özüm durum.

İlyas Tapdığın uşaqlar üçün yazdığı istər şeir, istərsə də nəsrdə cazibədarlıq, hərarət, səmimiyyət azlıq edəndə mövzu nə qədər maraqlı olsa da təsiri olmur. Belə halda bəzən müəllif uşağın diqqətini cəlb etmək üçün şeiri bir növ oyuncağa, əyləncəyə çevirir. İlyas Tapdıq isə ən çətin mövzunu belə uşaqlar üçün asanlaşdırıb böyük poetik vüsətdə ifadə etməyi bacarır.

Kömür kürədə
Qığılcımlanır,
Kömür köz olur
Köz xıncımlanır...
Dəmirçi əli
Dəmir kimidir
Qızarmış dəmir
Xəmir kimidir.

İlyas Tapdığın təbiət hadisələrinə, ağaca, çiçəklərə, torpağa , Xəzərə, küləyə, yağışa həsr etdiyi ürəkdən gələn, ürəyə axan şeirləri, heç kimə oxşamayan özünəməxsus, bənzərsiz poeziyası Azərbaycan uşaq ədəbiyyatının ən gözəl incilərindəndir.

Mehdi, Mehdi,
Ay Mehdi!
Bu küləkdi,
Ya Mehdi?!
Bu meh deyil,
Küləkdi!
Qum ələyən ələkdi!
Bu küləkdi,
Kələkdi.
Kül sovuran
Küləkdi.

İ.Tapdığın poeziyasının bir məziyyəti də xalq yaradıcılığından bəhrələnməsidir. O, aşıq şeirini mükəmməl bilir, saz motivlərinə yaxından bələddir. Bu da sonradan öyrənilən, tədqiqat nəticəsində əldə edilən məsələ deyil. Bu poeziya İlyasa dünyaya göz açandan tanışdır, onu ana südü ilə birlikdə əmib.

Keçidi keçdi keçim,
İndi gərək mən keçim.
Keçini keçim.
Yaxud:

Cücə sünbül döyürdü,
Cücə cücəni gördü.
Cücə cücəni döydü,
Sünbülü qarğa qapdı,

Cücə gözünü döydü. İki cücənin sünbül üstə dalaşması, qarğanın sünbülü qapması, cücələrin peşman-peşman gözlərini döyməsi uşaqlarda şən gülüşə səbəb olur...

İ.Tapdıq uzun illər "Gənclik" nəşriyyatında, "Azərnəşr"də işləmiş, 700-dən çox kitabın redaktoru olmuş, bir müddət Azərbaycan televiziyasında "Gənclər üçün proqram" redaksiyasının baş redaktoru vəzifəsində çalışmışdir.

"Savalan" qəzetinin redaksiya heyətinin üzvü olan İlyas Tapdıq tez-tez orta məktəblərdə keçirilən görüşlərdə, ədəbi-bədii gecələrdə iştirak edir, məktəbli oxucuların qarşısında öz şeirlərini oxuyur, onlarda yüksək vətənpərvərlik duyğularının aşılanması üçün əlindən gələni əsirgəmir. Və belə yüksək xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2003-cü il tarixli sərancamı ilə İlyas Tapdıq Prezident təqaüdünə layiq görülmüşdü.

Hər bir qələm sahibinin ədəbi mühitdə qəribə tale yolu var. İlk qələm təcrübəsi bəzən müəllifinin özünün də ağlına gəlməyən qəribə ədəbi yanrın güclü təsirindən yaranır. Şeiri, hekayəsi, povesti, yaxud əsəri, ədəbi parçası yazılıb çap üzü görən kimi özünə oxucu tapırsa, müəllifini qanadlandırır, onu daha yeni bir yaradıcılıq uğuruna səsləyir. Belə qələm sahiblərindən biri də İlyas Tapdıqdır.

İlyas Tapdığın həyat, və yaradıcılığı uzun illər nəşriyyatla bağlı olub. O, mahir, həm də çox tələbkar bir redaktor kimi tanınır. Indiyə qədər onun redaktə etdiyi kitabların sayı 700-ə çatıb. Vaxtilə "Gənclik" nəşriyyatında şöbə müdiri işləyərkən onun təşəbbüsü ilə "Gənc şairin ilk kitabı" seriyası yaradılıb. O, neçə-neçə gənc şairə xeyir-dua verib, onları sənət aləminə pərvazlandırıb.

İlyas Tapdığın yaradıcılığını Azərbaycanın bir sıra qüdrətli söz ustaları, o cümlədən Süleyman Rəhimov, Osman Sarivəlli, Mir Cəlal, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Məmməd Araz qiymətli fikirlər söyləmiş, ayrı-ayrı şeir və poemalarını ürək genişliyilə təqdir etmişlər.

Osman Sarıvəlli məqalələrinin birində deyir: "İlyas Tapdıq sözü danışdırmağı bilən şairdir. Onun şeir rübabı xalq ruhunda köklənib. Elə buna görə də İlyasın poeziyası belə ürəkdən sevilir, alqışlanır".

Çoxdur dağlarında qızıl, dəmir, mis,
Gədəbəy dünyaya tanışdır artıq.
Gəzdik dağlarını qarış-qarış biz,
Qızıldan qiymətli İlyası tapdıq!

İlyas Tapdıq istedadlı sənətkardır. O, balalarımızın sevimli şairidir. Şeirləri tez-tez müxtəlif dərsliklərin səhifələrindən boylanır, məktəb səhnələrindən, uşaq

bağçalarında keçirilən şənliklərdən, eləcə də radio dalğalarından, televiziya ekranlarından səslənir.

Onun məşhur "Dəvələr" şeiri artıq ədəbiyyatımızın klassik nümunəsinə çevrilmiş, respublikamızın sərhədlərini aşaraq dünya səyahətinə çıxmışdır.

Nənənin evində
gəbə var.
Gəbənin üstündə
dəvə var,
Dəvənin belində
təpə var,
Təpənin üstündə
nəvə var.
Dəvənin yunundan
toxunur gəbələr,
Dəvənin üstündə
dayanır təpələr,
Təpələr üstündə
oynayır nəvələr.

İlyas Tapdıq söz sərrafı, söz zərgəri, söz rəssamıdır. O, sözdən ilmə vurur, naxış toxuyur, poetik lövhələr yaradır. Doğulub boya-başa çatdığı Gədəbəyə həsr etdiyi şeir dediklərimizə sübutdur.

İlyasam, el üçün qaynayır qanım,
Elsiz kimə gərək şeirim, dastanım,
Bu barlı-bəhrəli Azərbaycanın
Bu kiçik parçası Gədəbəydədir!

İlyas Tapdıq dağlardan pərvazlanıb. Dağlar onun arxası, dayağı, sözünün söykənci və ucalığıdır.

Şairin özü də, sözü də bu dağlara baş əyir:

Hər ürəyin payızı var, qışı var,
Hər yuvanın bir qayıdan quşu var,
Çiçəyində anamın göz yaşı var,
Dağlar, sizə baş əyməyə gəlmişəm...
Anam elin əhvalını sormağa,
Baba yurdda bir daş olub durmağa,

Həm yazıçılığı, həm də ədəbi tədqiqatları ilə həmişə örnək olan professor Mir Cəlal Paşayev şair haqqında hələ ötən əsrin 60-cı illərində belə yazmışdı: "... İlyas Tapdığın şeirləri üçün xas olan cəhətlərdən biri də lakonizm, dilinin saflığı və aydınlığıdır. Bu cəhət onun şeirlərinə aşıq poeziyasından gəlir." İlyas Tapdıq aşıq sənətinin hələ ötən əsrin 60-cı illərindən belə alovlu təbliğatçısı, tərənnümçüsü kimi

tanınıb. Onun təşəbbüsü, cəfakeşliyi ilə Azərbaycan televiziyası və radiosunda dəfələrlə aşıqların çıxışları təşkil edilib. Aşıq sənətində "Aşıq Alı" adlı ilk telefilmin və digər aşıqlar haqqında çəkilmiş daha neçə-neçə telefilmin ssenari müəllifi məhz İlyas Tapdıq olub.Onun Azərbaycan Aşıqlar Birliyinin yaradılması işində də müstəsna xidmətləri olub. 50 ildən çoxdur ki, şairin şeirləri həm Azərbaycanda, həm də İran və Türkiyə aşıqları tərəfindən həvəslə oxunmaqdadır.

Xalq Şairi Bəxtiyar Vahabzadə də şair həmkarını dəyərləndirib: "...İlyas müxtəlif şeir formalarında yazır. O, hecada da müvəffəq olur, sərbəstdə də, gəraylıda da, qoşmada da. Yaxşı cəhət orasındadır ki, şair klassik şeir formalarına yeni məzmun verməyi bacarır...".

Yubiley tədbirlərinin geniş və maraqlı olması üçün ən əvvəl kitabxanada İlyas Tapdıq yaradıcılığı ilə bağlı sərginin keçirilməsi məqsədəuyğun olardı. Sərginin rəngarəng olması üçün ilk öncə İ.Tapdıqğın ailə albomundan bir neçə şəkil nümayiş etdirmək olar. Sərgidə həmçinin İ.Tapdığın kitabları ilə yanaşı dövrü mətbuatda çap olunan məqalələrin kartotekası da öz əksini tapmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Şeirimin canıdır bu el, bu vətən", "Uşaq ədəbiyyatının İlyas Tapdığı", "Uşaqların sevimlisi İlyas Tapdıq", "Uşaqların yaxın dostu", "İlyas Tapdıq-90", "Şeir sevən balalar" və s. İndi isə sərginin nümunəsini veririk.

1. "Ustad haqqı qazanmış şair - İlyas Tapdıq"
2. İlyas Tapdığın portreti
3. Görkəmli insanların İlyas Tapdıq haqqında söylədikləri sitatlar
4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası
5. Kitablarının nümayişi
6. https://www.youtube.com/watch?v=gBkK-zJQsKg
7. https://www.youtube.com/watch?v=0yvmsGp9zzs




Uşaq ədəbiyyatı xəzinəsindən
İlyas Tapdıq
Bibliografiya


Etibar Nadiroğlu
ŞEİRİN, SÖZÜN BAĞBANI


İLYAS TAPDIQ
SEÇİLMİŞ ƏSƏRLƏRİ


İlyas Tapdıq
BİR EVİM VAR


İLYAS TAPDIQ
ŞEİR SEVƏN BALALAR


İLYAS TAPDIQ
KÖŞƏK


ЧИМНАЗ ОЈНАЈЫР


İLYAS TAPDIQ OQTAY HÜSEYNLİ
SİNİFDƏNXARİC OXU
1-4
TURAN


ХОРУЗ








https://drive.google.com/file/d/1vSIZGOXUogW15dkLdi8wFk2VC5QZo68Q/view
https://drive.google.com/file/d/1v7i1OWu76AgZ_kWTm9_qc3ZIssfHTVfh/view

**Biblioqrafik icmal:** Uşaq ədəbiyyatına dəyərli töhfələr verən İlyas Tapdıq




İlyas Tapdıq: biblioqrafiya / tərt. N.Tahirova, L.Qafarova; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. G.Səfərəliyeva; Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanası. – Bakı, 2015.-248 s.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair İlyas Tapdığın həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada görkəmli şairin 60 il ərzində qələmə aldığı bütün əsərləri və onun haqqında yazılan materiallar özəksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Şairin həyat və fəaliyyətini əks etdirən "İlyas Tapdıq" adlı bu biblioqrafiya görkəmli şəxsiyyətin həyat və fəaliyətinin bütün dövrlərini əhatə edir. Biblioqrafiya iki hissə dən ibarətdir. I hissədə İlyas Tapdığın əsərləri, II hissə də isə onun haqqında materiallar öz əksini tapmışdır

İlyas Tapdığın əsərlərini tədqiq edən tədqiqatçılar bu kitabdan yararlana biləcəklər. Müəllif haqqında biblioqrafiyada "Kitablarda", "Elektron resresurslarda", "Filmoqrafiya" bölmələri verilmişdir. Şairin digər dillərdə çap olunan əsərləri də tarixi xronoloji ardıcıllıqla verilmişdir. Kitab oxucular, tədqiqatçılar və tələbələr üçün dəyərli bir vəsait olacaqdır.

https://clb.az/arxiv2021/dosyalar/668.pdf






Bir evim var/ İlyas Tapdıq ; rəs. Rasim ; red. F.Sadıq ; tex.red. R.Əhmədov ; korrekt. V.Hədənov - Bakı : Gənclik, 1971. - 8 s.
"Bərpa-nəşr"
Bir evim var/ İlyas Tapdıq; burax. məs. A.Cəfərov, Ş.Qəmbərova ; red. Z.Dadaşova , S.Səmədova ; dizayn. V.Ağamirzəyeva , E.Səfərəliyeva ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı : "Renessans-A", 2017.- 8 s.
Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır.
Kitabda İlyas Tapdığın azyaşlı uşaqlara yazdığı müxtəlif səpgili şeirləri toplanmışdır.
https://clb.az/arxiv2021/dosyalar/1427.pdf




Gədəbəy Aşıq Məktəbinin direktoru Etibar Nadiroğlunun Prezident təqaüdçüsü, şair, naşir, maarifpərvər ziyalı İlyas Tapdığın həyat və yaradıcılığına həsr etdiyi "Şeirin, sözün bağbanı" adlı kitabda 60 ildən çox ədəbi fəaliyyətdə olan şairin yaradıcılığı təhlil edilib, onun poeziyada qazandığı uğurlarından bəhs olunub. Kitab tanınmış şairin çoxşaxəli yaradıcılığı haqqında maraqlı məqamları ortaya çıxarıb. Kitabda İlyas Tapdığın hələ tələbəlik illərində böyük şair Səməd Vurğunun təqdimatı ilə diqqət önünə gətirilməsi, Xalq şairləri Osman Sarıvəlli, Hüseyn Arif və digər söz adamları tərəfindən qiymətləndirilməsi barədə müxtəlif fikirlər yer alıb.Uzun illərdir ki, aşıq sənətinin tədqiqatı ilə tanınan müəllif, "Şeirin, sözün bağbanı" kitabında ayrı-ayrı zamanlarda tanınmış ədəbiyyat adamlarının İlyas Tapdıq haqqında yazdığı sözlərə geniş yer verib. Kitabın redaktoru tanınmış şair Musa Ələkbərlidir.

İlyas Tapdığın gözəl bir uşaq şairi olmasından, şeirlərində uşaq psixologiyasına bələdliyindən və bu sahədə ardıcıl fəaliyyət göstərməsindən digər müəlliflər söz açmışlar.

**Görkəmli şəxsiyyətlərin İlyas Tapdıq haqqında söylədikləri fikirlər**

İlyas Tapdığın əsərlərini oxuyanda adam özünün maraqlı və cazibəli bir müsahib ilə üz-üzə gəldiyini duyur və yenicə tanış olduğu bu həssas müsahibi axıracan dinləməyə çalışır.

**Mir Cəlal,**
Xalq yazıçısı

İlyas Tapdıq təzə söz deməyə, öz oxucularını düşündürməyə səy edən istedadlı şairdir. İlays Tapdıq gənclik şairidir.

**Süleyman Rüstəm,**
Xalq şairi

Uşaq ədəbiyyatının görkəmli nümayəndələri, tanınmış şəxsiyyətləri onun bu sahədə gördüyü işləri yüksək qiymətləndirmiş, onu Abdulla Şaiq kimi böyük müəllim və ustad yazıçı ilə müqayisə etmişlərsə bu fikir bədii fakt kimi İlyas müəllimin ədəbiyyatımızdakı yerini, onun əsərlərinin tarixi əhəmiyyətini çox gözəl müəyyənləşdirmişdir.

**Zəlimxan Yaqub,**
Xalq şairi

İlyas Tapdıq xalq ədəbiyyatından yaradıcılıqla bəhrələnən bir söz ustasıdır.

**Zahid Xəlil,**
Professor, yazıçı

"İlyası bizə sevdirən hər şeydən əvvəl əsərlərindəki xəlqilik, vətənpərvərlik, beynəlmiləlçilikdir"

**Hüseyn Arif,**
Xalq şairi

"İlyas sevilən şairdir. İlyas ürək şairidir. Şeirləri sərhədləri keçir, ürəklərdən-ürəklərə yol tapır, musiqi ilə qovuşur, mahnılara çevrilir, aşıqların sazında gül açır, güllənir.

**Nahid Hacızadə,**
yazıçı, dramaturq

İlyas müəllim həmişə yaz, yarat yenə əvvəlki şövqlə, yaradıcılıq ehtirası ilə. Sən qocalığının gəncliyini yaşayırsan...

**Vaqif Yusifli,**
yazıçı

“İlyas Tapdığın şeirlərində həyati müdriklik və sadəlik var. Bu yaradıcılıqda ən çətin yoldur”

**Ələviyyə Babayeva,**
yazıçı

Azərbaycan uşaqları ona görə xöşbəxtdir ki, onların İlyas Tapdıq kimi gözəl şairləri var.

**M.Prilejayeva,**
rus yazıçısı

İlyas Tapdıq müdrik bir nağılçıdır-poetik nağılçı. Mən sidq ürəkdən deyirəm, o bizim Rusiyanın Marşak, Mixalkov, barto, Prilejayeva kimi uşaq ədəbiyyatı korifeyləri ilə bir sırada dayana bilər.

**Valentin Berestov,**
ədəbiyyatşünas

Yaradıcılığını əsasən uşaqlara həsr etmiş Ilyas Tapdığın bir çox şeir, nağıl və povestləri yaddaqalan və təbiidir. “Şıltaq günəş”, “Baba və Mehriban”, “Çimnaz oynayır”, “Ata, gəl gəzək”, “Balaca sağıcı”, Balaca baramaçı”, “Ayı kim sındırıb”, “Mən xalamın qızıyam” və s. şeirləri bunlara misaldır.

İ.Tapdıq həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. F.Tutçev, L.Ukrainka, M.Zoşşenko, R. Bernis, Y.Raynis, Abay, E.Mejelaytis, Aybek, Uyğun, Zülfiyyə və s. görkəmli sənətkarların yaradıcılığından nümunələri dilimizə çevirib, eyni zamanda şeirləri rus, belarus, qırğız, türkmən, eston, bolqar, çex və s. dillərə tərcümə edilmişdir.

Uzun illər “Gənclik” nəşriyyatı və Azərbaycan Dövlət Nəşriyyatında çalışmış İlyas Tapdıq bu illər ərzində 700-dən çox kitabın redaktoru olmuş, Azərbaycan Televiziyasında gənclər üçün bir neçə verlişlərin baş redaktoru vəzifəsində çalışmışdır. İlyas Tapdıq ədəbiyyata gəldiyi ilk gündən uşaqların sevimlisi olub. Onun uşaqlar üçün yazdığı şeirlər elə uşaqlar kimi təbii, saf və sadədir. Şeirlərində cazibədarlıq, hərarət, səmimiyyət ən əsas yeri tutur. Onun təbiət hadisələrinə, ağaca, çiçəklərə, torpağa, Xəzərə, küləyə, yağışa həsr etdiyi ürəkdən gələn, ürəyə axan şeirləri, heç kimə oxşamayan özünəməxsus, bənzərsiz poeziyası Azərbaycan uşaq ədəbiyyatının ən gözəl incilərindən biri kimi uşaqların yaddaşına həkk olunub.

Öyünürdü şair yenə,
Öyünməyə haqqı vardı.
Misrasına əl vuranın
Söz əlini yandırardı.

İlyas Tapdıq hər şeydən əvvəl güclü müşahidə qabiliyyətinə malik olan bir sənətkardır. Hamının gördüyü bir lövhəni İlyas Tapdıq heç kəsin görə bilməyəcəyi bir mənzərəyə çevirməyi bacarır.

Nənənin evində gəbə var,
Gəbənin üstündə dəvə var,
Dəvənin belində təpə var,
Təpənin üstündə nəvə var...

Təkcə bu bənd bitkin bir şey ola bilərdi. Lakin şair hər misranın məntiqi davamını kəşf edir. "Nənənin evində gəbə var, Gəbənin üstündə dəvə var" bu misraların məntiqi davamı kimi şeird ə oxuyuruq: "Dəvənin yunundan toxunan gəbələr". Yalnız bu misradan sonra uşağa aydın olur ki, dəvələri əzizləyib, şəklini gəbənin üstündə niyə çəkiblər. Çünki dəvənin yunu olmasaydı gəbələr də toxunmazdı. Dəvələrin belindəki təpələr, həmin təpələrin üstündə oynayan nəvələrin xoşbəxtliyinin də səbəbi həmin dəvələr və gəbələri toxuyan nənələrdir.

İlyas Tapdığın uşaq şeirlərinin bu qədər sevilməsindəki ən mühüm cəhət onun uşaq ədəbiyyatının sirlərindən əlavə, uşaqların psixologiyasına, dünyasına dərindən bələdliyidir. O, bu şeirlərində nə forma, nə də məzmun axtarışına qapılmır. Hər ikisinin peşəkar şair intuisiyasından yaranan vəhdəti hələ uzun illər İlyas Tapdıq imzasını Azərbaycan uşaq ədəbiyyatında dərin ehtiramla yad etdirəcək əsərləri yaradıb. O, çox adi, hər kəs üçün normal görünəcək hadisələri şeirlərində son dərəcə incə və poetik dillə qələmə alıb.

İlyas Tapdığın yaradıcılığını, qələmə aldığı şeirləri oxucular arasında təbliğ etmək məqsədilə uşaq kitabxanalarında **şeir müsabiqə**lərinin keçirilməsi məqsədəuyğun olardı. Bunun üçün kitabxanaçı on gün ərzində İlyas Tapdığın qələmə aldığı şeir kitabları ilə oxucuları tanış edir. Müsabiqənin sonunda ən gözəl şeir söyləyən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır. Müsabiqə **"Hamı şeir söyləyir", "Şeir sevən balalar"** adlandıra bilərik.

**Hamı şeir söyləyir**

Aysel kitab oxuyur,
Kitabdan doymur Aysel,
Kitabları əlindən
Heç yerə qoymur Aysel.

Aysel bilən şeirləri
Ana da əzbərləyir.
Aysel bir sözü çaşsa,
O sözü ana deyir.

Onun oyuncaqları
Şeirlərlə əylənir.
Aysel oxuyan şeiri
Evdə hamı öyrənir.

Hələ təkcə budurmu?
Həyətdəki uşaqlar,
Ayselgilə həmişə
Gələn əziz qonaqlar,

Aysel bilən şeirləri
Onlar da əzbər deyir.
Bir də görürsən hamı
Xorla şeir söyləyir.

Yazılıb doğma dildə,
Bu şeirlər şirindir.
Bəlkə bununçün belə
Aysel olub şirindil...

Tumarlayıb saçını,
Tərifləyib biz onu,
Soruşuruq Ayseldən
Gələcək arzusunu,

Fərəhlənir: Böyüyüb
Müəllim olacam mən.
Sizə də öyrədirəm
Dərslərimi indidən!

**Üzüm**

Düzüm- düzüm
Ağ üzüm,
Günəşin damlasısan,
Sən də ana torpağın
Qənd-şəkər balasısan!

Baxımsız qoymaq olmaz,
Üzümdən doymaq olmaz.

**Balaca Tural**
Beşcə yaşı var
Hələ Turalın,
Amma nə qədər
Çətin sualın
Cavablarını
Bilir əzbərdən.
Qəribə sözlər
Uydurur hərdən.
Bala pişiyə
Bir kəlmə "miyoş"
Ad verib Tural.
Evə bir kirpi
"Tikanlı qonaq"
Gətirib Tural.
Deyir yaxşı bax,
Nənə bu kirpi
Yumru yumaqdır.
Turala bundan
Anası corab
Toxuyacaqdır...
Şəkillər yığır,
Öyrənir çoxlu
Heyvan adları;
Ən çox bəyənir
Köhlən atları;
Deyir: özümə
Bir at alacam!
Böyüyüb mən də
Çapar olacam!..

**Badam**
Bahadur babam
Əkibdir badam.
Deyir bu ağac
Hər bağda bitməz.

Münbit olmayan
Torpaqda bitməz!
Bağa çağırar
Bənna atamı.
Qorxur ki, külək
Sındırar cavan,
Pöhrə badamı.
Yeldöyər səmtə
Çəkir daş hasar;
Qumla basdırar
Onu gilavar.

**Dəvələr**
Nənənin evində gəbə var.
Gəbənin üstündə
dəvə var,
Dəvənin belində
təpə var,
Təpənin üstündə
nəvə var.
Dəvənin yunundan toxunur gəbələr,
Dəvənin üstündə dayanır təpələr,
Təpələr üstündə oynayır nəvələr.

**Armud**
Dağın yamacı...
Yamacda bitib
Armud ağacı.
Bıtraq kimidir
Ağacda armud,
Düşsə gillənər
Yamacda armud.
Ayı armudu
Görüb sevindi,
Mayallaq vurdu:
Armud mənimdi!
Armud mənimdi!!
Budaqlarını çəkib əyərəm,
Çıxıb başına,

Bir-bir yeyərəm!
Qarğa armudu
Görüb sevindi:
Qar-r-alıb budur,
Armud mənimdi!
Q-armud mənimdi!!
Xətrim istəsə Dimdikləyərəm,
Qonub budağa
Bir-bir yeyərəm.

İlyas Tapdıq balaca oxucuları heç zaman unutmamış onlar üçün biri - birindən maraqlı şeirlər qələmə almışdır. Kitabxananın nağıl otağında azyaşlı oxucularla şairin "Qaçaq dovşan" poeması əsasında **səhnəcik** təşkil olunur. **"Qaçaq dovşan"** poemasının qəhrəmanı uşaqların çox sevdiyi dovşandır.
https://drive.google.com/file/d/1v7i1OWu76AgZ_kWTm9_qc3ZIssfHTVfh/view
Bu əsər uşaq ədəbiyyatımızda dovşana həsr olunan digər əsərləri təkrarlamır, orijinallığı ilə diqqəti cəlb edir. Əsərdə yırtıcı, hiyləgər heyvanlarla dostluq edən dovşan fərasətli, qoçaq, sayıqdır.





**Aparıcı:**
Dovşan meşə yolunda,
Bir səbət də qolunda
Qaça-qaça gedirdi,
Bir tülkü onu gördü.
Gəlib çıxdı yoluna,

-Az öyün,
Meşədəki yemliyin
Yerini mən bilirəm!
Şirin cana yemliyin
Xeyrini mən bilirəm!
Yuvamınca yanında,
Bitir bağ-bostanımda,

Salam verib tez ona,
Dedi:

**Tülkü**
-Xoş gördük səni,
Tək gəzirsən meşəni,
Mübarəkdir səbətin,
Harayadır niyyətin?
**Dovşan dedi:**
-Gedirəm,
Səhəri seyr edirəm,
Xoşlayıram baharı,
Dinləyirəm quşları,
Çıxıb çölə-çəmənə,
Xəstə dovşan nənəmə
Bir az yemlik yığacam,
Elə, özüm də acam,
Yemlik yeyib doyunca,
Yenə bu yol boyunca
Qayıdacam yel kim,
Görəcəyəm nənəmi!

Yedikcə kökəlirəm,

İndi ordan gəlirəm.
Sovqat da bağlamışam,
Yuvamda saxlamışam,
Bilirdim, səhər-səhər
Sənintək bir dost gələr,
Olar mənim qonağım.
Gedək, bir az da yığım,
Sən sevinə-sevinə
Apar nənən evinə!
Yeyib dərhal sağalar,
Ona da hörmətim var!



Dovşan:

-Can tülkü,
Gözəl, mehriban tülkü,
Çox sağ ol təklifinlə,
Ancaq sözümü dinlə,
Hörmətim çoxdur sənə,

Nənəm tapşırıb mənə,
Qoşulmayıb heç kmə,
Tez qayıdıb evimə.
Səninlə getsəm əgər,
Nənəm məndən inciyər.
Yemliyi, küsüb yeməz.
Arxayın-arxayın gəz,
Doğma talama çatım,
Yemlik yığıb qayıdım!

Tülkü:

-A dovşan,
Sən nə yaman qorxaqsan,
Bir səbət yemlik nədir?
Bu da bir bəhanədir,
Həm də bir az gəzərsən,
Bostanımı bəzərsən
İncə qədəmlərinlə,..
Uzaq deyil,
ərinmə!
Gedək bağ-bostanıma,
Özün bax bostanıma!
Kələmə də qonaq ol...
Getmirsən getmə,
sağ ol!
Məndən təklif etməkdir...
İndi çiçək-çiçəkdir,



Bükülür ağ kələmim,
Kökünü yağlayıram,
Qulluqçu saxlayıram
Hindən çıxıb toyuqlar,
Hər axşam onu yoxlar,
Dimdiyilə suvarar,
Kirpi gəlib aparar
Qırılan yarpağını...
Sürümə ayağını,
Di gəl gedək, qonaq ol,
Qırıb apar nənənə,
Acığı tutmaz sənə!

Dovşan dedi:-Çox sağ ol,

Dosta mehriban tülkü,
Gedəmmərəm, can tülkü!
Evimizin yanında,
Xalamın bostanında,
Bilirsən nə aləm var,
Kələmdən çox kələm var,
Qalıb başdı-başına;
Gəlsə bütün dost-aşna
Bostanımız sovulmaz,
Bir nəfər də qovulmaz!
Yeyib gedər ac gələn!..
Amma ki, Ağacdələn
Baxmadı heç kələmə,
Mənim yazıq nənəmə
Təkcə, yemlik buyurdu...
Tülkü yalan uydurdu,
Dedi:-Dovşan, o quşun,
O, dimdiyi sınmışın
Sözünə aldanmayın,
Kiçik ürəyi xayın
Yaramazın biridir,
Həmişə ağac didir,
Dimdiyinə veribdir
Olub-qalan gücünü,
Tutur cücü-mücünü,
Çox ağılsız bir quşdur,
Onun kəlləsi boşdur,
Pəhriz buyurub o gün,
Ac saxlayıb düz on gün.
O mənim nənəmi də,



Taladakı zəmidə
Taxıllıqda öldürüb,
Paxıllıqdan öldürüb,
Üstümüzə güldürüb.

**Ədəbi bədii gecə**
**İlyas Tapdıq - "sözü çiçəklərin dadında qalan" şair**

**I Aparıcı:** Bu gün - 30 noyabr, imzasını ilk dəfə məktəb dərsliklərində oxuduğumuz, şirin, səmimi, maraqlı, özünəməxsus uşaq şeirlərinin müəllifi kimi tanıdığım İlyas Tapdığın doğum günüdür. Əsərləri dünyanın bir çox dillərinə tərcümə olunan, kitabları keçmiş SSRİ məkanında kütləvi tiraylarla çap olunan, ömrü boyu sazımızın-sözümüzün keşiyində dayanan, ustad aşıqlarımızın dostu, gənc şairlərin qayğıkeş ağsaqqalı olan, "Gədəbəydədir" qoşmasıyla doğulduğu torpağın himnini yazan, bir uşaq saflığından yaranmış uşaq şeirləriylə balalarımızın mənəvi dostuna çevrilən şairin uşaqlar və böyüklər üçün yazılmış onlarla şeirlərinə bəstəkarlarımızdan C.Cahangirov, R.Haciyev, Ş.Axundova, T.Hacıyev, V.Adıgözəlov, O.Zülfüqarov, N.Məmmədov, B.Kərimov, O.Kazımov, S.İbrahimova, A.Sultanova, O.Rəcəbov, M.Babayev, R.Şəfəq, E.Rüstəmov, C.Zeynallı, Z. Məmmədova və başqaları musiqilər bəstələmişlər.

**II Aparıcı: I Aparıcı:** O, təkcə şair deyildi, həm də tərcüməçi, redaktor, Azərbaycan ədəbiyyatının bütün istiqamətlərdə inkişafı üçün əlindən gələni əsirgəməyən əsl söz fədaisi idi. Bəlkə Bernard Şou da özündən çıxış edərək məhz İlyas Tapdıq kimi ədəbiyyat, sənət fədailəri haqqında deyirdi: "Yalnız yazıçı olmaq haqqında mən heç vaxt düşünməmişdim, çünki yazıçı kimi doğulmuşdum. Yazıçı olmaq mənim üçün çox təbii bir hal idi, ağızdakı suyun dadı kimi; onun dadını hər gün içirsən deyə hiss eləmirsən..."

**I Aparıcı:** Bu məqamda unudulmaz şairimiz Səməd Vurğunun sözləri yadımıza düşür: "Uşaq xəyalı səyyardır. O, güldən-gülə, çiçəkdən-çiçəyə qonan bir kəpənəyə bənzər. Daim hərəkət edən uşaq təbiətinin hüsnüdür. Xəyal və romantika bu təbiətin qanadlarıdır". İlyas Tapdıq da uşaq şeirlərində məhz bu romantikaya meydan açan, uşaqları təkcə dünyanın bilməcələri ilə tanış olmağa deyil, həm də gələcəyə qanadlandırırdı. Onun şablondan, çılpaq təbliğatdan uzaq – original və şairanə tematikası vardır. Doğma yurdunun insanları, təbiəti və gözəlliyi şairin ayrı-ayrı şeirlərində təmiz hisslərin vəhdəti ilə ifadə olunur.

**II Aparıcı:** İlyas Tapdıq da ömrünün hər gününü deyil, hər anını ədəbiyyatın, sözün keşiyində dayanaraq keçirən nadir şəxsiyyətlərimizdən biri idi. O, bir şair olaraq həmişə "nə deyirlər desinlər, dünyadakı hər şey - bəli, bəli, məhz hər şey elə sözdür"

amacıyla yazıb-yaradıb. Onun bioqrafiyasına mövzu olan ömür yolu da bunu çox dəqiqliklə sübut edir:

**I Aparıcı:** Haqqında söz açdığımız İ.Tapdığın "Bakının gecəsi" adlı ilk şeiri bütün zamanların ən məşhur və öncül ədəbi orqanlarından olan "Azərbaycan" jurnalında çap olunduqdan sonra Azərbaycan poeziyasında "İlyas Tapdıq" imzası görünməyə və zaman keçdikcə özünü təsdiq etməyə başlayır.1955-ci ildə, dördüncü kursda oxuyarkən ilk şeirlər kitabı çapdan çıxan gənc şair haqqında Səməd Vurğun, Osman Sarıvəlli, Rəsul Rza, Nəbi Xəzri, Hüseyn Arif və digər tanınmış söz adamları dəfələrlə xoş sözlər, maraqlı fikirlər söyləyirlər.

**II Aparıcı:**1956-cı ildə universiteti bitirdikdən sonra "Uşaqgəncnəşr"də redaktor (1957-1962), "Azərnəşr"də redaktor, böyük redaktor (1962-1968), "Gənclik" nəşriyyatında böyük redaktor, redaksiya müdiri, baş redaktor (1968-1976), Azərbaycan Baş Mətbuat Müvəkkilliyində qrup rəhbəri (1976-1978), Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində televiziya gənclər baş redaksiyasının baş redaktoru (1978-1983), "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri (1989-1992), Türkiyənin Türk Standartları İnstitutunda və Xarici İşlər Nazirliyi və kalkınma ajansında müəllim, "Azərbaycan" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri (1992-1995) vəzifələrində işləyib. "Gənclik" nəşriyyatı redaksiya şurasının üzvü, Azərbaycan komsomolu Şöhrət şurasının, "Türk əsrində Azərbaycan" jurnalının redaksiya heyətinin, bir sıra respublika festival və müsabiqələrində münsiflər heyətinin üzvü olub.1992-1995-ci illərdə Türkiyədə yaşayan şair qardaş ölkənin ədəbi, ictimai həyatında fəal iştirak edib. Bu illər ərzində də şair uzun müddət bir-birindən qopmuş Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin yenidən bərpası və inkişafı üçün misilsiz xidmət göstərib.

**I Aparıcı:** Onun müxtəlif zamanlarda çıxmış "Bulaq başında", "Gözlər", "Bir eşqin şimşəyi", "Arxalı dağlar", "Əksim və qəlbim", "Meşənin mahnısı", "Qızlar, qağayılar", "Özümlə görüş", "Məhəbbət yolları" və digər kitabları oxucular, ədəbi mühit tərəfindən bu gün də sevilərək oxunmaqdadır. İlyas Tapdıq poeziyası haqqında danışarkən deyiləcək ilk sözlərdən biri odur ki, bu poeziya böyük mənada müşahidələrə əsaslanır. Bu, təkcə şair müşahidəsi deyil, dünyanı, həyatı, insanları yaxından tanıyan, uzun illərin təcrübəsini qazanmış qocaman insanın baxışlarıdır. Amma o, yenə də məsələyə təvazökarlıqla yanaşır:

Az da olsa görmüşəm dünyanı,
Həyatda ölüm də görmüşəm,
Olum da görmüşəm...

**II Aparıcı:** Həyatı da, ölümü də görən, dünyanın, insanların hər üzünü müşahidə edib öyrənən müəllif bu kiçik şeirin sonunda bildiklərini ümumiləşdirir, insan oğluna müdrikliklə nəsihət edir:

Toxuyublar torpaq ilmə-ilmə;
Uçurumdur
Ömrün dörd yanı,
Büdrəmə, əyilmə!

"Bir gilə göz yaşında Dərya həsrəti sezən" həssas qəlbli şair nikbin ruhuna, ürəyində gizlədiyi sonsuz həyat və insan sevgisinə rəğmən bəzən bədbinliyə də qapılır. Bu bədbinlik, küskünlük zaman-zaman onun misralarında da özünü göstərir:

**I Aparıcı:**
Əlimi uzatsam toxunar Aya,
Nə xoşdur uzaqdan baxmaq dünyaya!
Qəlbimin səsini eşitmir çaya,
İnsanam,
Mən insan sorağındayam.

Cəmi beş misrada müdrik insanın dünyaya, insanlığa yanaşması, düşüncələri qısa, amma dəqiq şəkildə əks olunub. İlk misralarda nikbinlik, pozitiv əhval olsa da, şairin sonrakı misralarda əhvalı dəyişir, əsl fikirləri sərgilənir.

**II Aparıcı:** İlyas Tapdıq poeziyasında gözlər elementi var ki, şairin ona uyğunlaşdırdığı biçim biz bildiyimizdən kəskin şəkildə fərqlənir. Onun dediyi gözlər baxmaq üçün deyil, görmək və anlamaq üçündür. Xalq arasında "bəsirət gözü" deyilən də yəqin ki, elə budur:

Gözlər axtarıram mən -
Namərdliyi, həsrəti,
Əsarəti yandıran
Alovu-közü olsun.
Ürəklərə işləsin -
Diləkləri görsün o!
Gözlərin
Gözü olsun!..

**I Aparıcı:**İlyas Tapdığın adı həmçinin, aşıq poeziyamızın təbliği və inkişafı mövzusunda da ön planda çəkilir. O, ədəbiyyatımızın, folklorumuzun bu istiqamətində də əvəzsiz xidmətləri olmuş sənətkarlarındandır. Ötən əsrin sonlarında bu sənətə qarşı açıq-aşkar biganəliyin hökm sürdüyü dövrlərdə məhz onun şəxsi qayğısı və təşəbbüsü hesabına televiziya və radioda, qəzet və jurnallarda aşıqlar, saz ifaçıları təbliğ olunub. O, təkcə bununla kifayətlənməyib, eyni zamanda, bir sıra

şeirləri ilə bu janrın genişlənib, zənginləşməsinə xidmət göstərmişdir. Onun "Gədəbəydədir", "Dağlar, sizə baş əyməyə gəlmişəm", "Qoşqar", "İndi Gədəbəyin yaxşı vaxtıdır", "Sazda ana laylası var", "Dağların", "Meşəbəyi", "Mən bu günü başqa günə qatmaram" kimi şeirlərini aşıqlar on illərdir ki, ifa etməkdədirlər.
**II Aparıcı:** Onun saz sevgisi, aşıq poeziyasına olan vurğunluğu soykökündən, genlərindən gəlir. Buna görə də ülvi, təmiz və dərindir. Necə ki, aşıqlar onun poeziyasını, şeiriyyətini sevərdisə, şair də onların sənətini könüldən sevərdi. Şair "O sazı çal, o sazı..." şeirində bu sevgini belə ifadə edib:

O sazdadır ürəyim,
Bağrına bas o sazı.
Götür sinən üstünə!
Bala-bala sən məni
Qarışdır öz tüstünə.

Görkəmli rus yazıçısı M.Prilejayeva "Detskaya literatura" jurnalındakı "Salam, İlyas Tapdıq" adlı məqaləsində qeyd edirdi ki, Azərbaycan uşaqları ona görə xoşbəxtdir, onların İlyas Tapdıq kimi gözəl şairləri var.
**II Aparıcı:** Onun şeirlərinin sevilməsindəki əsas cəhətlərdən biri də səmimiyyətidir. O, özündən əhvalatlar uydurmur, heç nəyi şişirtmir, hadisələrə səmimi şəkildə yanaşır.İlyas Tapdığın alliterasiyaya əsaslanan "Bildirçin" şeiri uşaq poeziyamızın nadir nümunələrindəndir. Bu şeirdə "bildirçin", "bildir", "bildir-bildir", "çildir" və başqa sözlər bir süjet ətrafında məharətlə birləşdirilib. Şeiri oxuyan hər bir uşaq ona yenidən qayıtmaq istəyir:

Bildir uçub bağçanı
Meşə bildi bildirçin.
Arzu çıxıb çığırdı
"Çildir, çildir" bildirçin
dedi:
Hanı quyruğun?
Mənə bildir, bildirçin.
Bəlkə pişik qoparıb
Neçə ildir, bildirçin.
Saf dili, axıcı və son dərəcə maraqlı sujetləri ilə seçilən bu uşaq şeirləri M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, R.Əfəndiyevlə başlayan uşaq poeziyamızın davamı kimi çox ibrətlidir.

**I Aparıcı:** İlyas Tapdığın təbiət təsvirli şeirləri də poeziyamızın önəmli nümunələrindəndir. Burada təbiətin sadə detalları mahir dillə təsvir olunur:

Gecə xəlbirdən keçirib
Külək sanki bu qumları,
Əsib-coşub sübhə kimi,
Nə dincəlib,
Nə sahildə çimir alıb.
Yorğun-yorğun çıxıb gedib,
Əyri-üyrü ləpirləri
Dərin qumlar üstə qalıb.

**II Aparıcı:**İlyas Tapdığın poeziyası hələ 19 yaşında ilk şeiri "Azərbaycan" jurnalında çap olunduğu dövrdən görkəmli söz adamlarının, ədəbiyyatşünasların, şairlərin diqqətini cəlb edib. Zaman-zaman tanınmış ədəbiyyatçıların onun haqqındakı düşüncələri mətbuatda çap olunub:

Məsələn, "Vətən" şeiri . Orada gəncəli Cavad xanın dəfn yeri, Rusiya imperiyasına qarşı vuruşması və Gəncə xanının adını çəkmək çox çətin idi. İlyas müəllim cəsarətli ədəbiyyatın tərəfdarı idi. Onları kitaba daxil etmişdi".

**I Aparıcı:** Bu gün də İlyas Tapdıq və onun kimi sənətkarlarımız sevilərək oxunur, ehtiramla yad edilir, xatirələri əbədi yaşayır. Onların yaratdıqları nadir sənət əsərləri var olduqca isə yaşamağa davam edəcəklər!

Sonda Fəxrəddin Meydanlının şeiri ilə tədbirimizi sona çatdırırıq.

Şair pərvazlanar doğma elində,
Hər çiçək gözəldir öz güllüyündə.
Söz mumtək əriyər şair dilində
Hopub təravəti baxçanın, bağın,
Şeirinə-sözünə İlyas Tapdığın.

Batırıb hər sözü bala, yazıbdır,
Bürüyüb qumaşa, şala, yazıbdır.
Yapıb qala üstən qala, yazıbdır
Yonubdur hər sözün tinin, bucağın,
Bərq vurur kalamı İlyas Tapdığın.

Bağlayar ünsiyyət hər adi kəslə,
Səsləyər dostları ahəstə səslə.
Oxuyar şeirini hamı həvəslə
Verməyib hədərə ömrün bir çağın,

Qızıldır hər anı İlyas Tapdığın.

Onun könlü-gözü dağda, meşədə,
Tutub qərarını çətin peşədə.
Hələ deyilməmiş sözü şişədə
Pöhrələr bürüyüb qolun-budağın,
Yetmişbeş baharlı İlyas Tapdığın.

Ömür pay-pay olar, hamıya çatmaz,
Hamı pay istəyər, əl paya çatmaz.
Paylar da pay alar, pay, paya çatmaz
Əsrin dörddə üçü şair, dayağın,
Bir payı hələ var İlyas Tapdığın.

Şair doğma yurda, elə bağlıdı,
Şairin ömürü xoş növrağlıdı.
Şair mərd doğulub, bir mərd oğludu
Odur yetirməsi ana torpağın,
Gədəbəy vətənli İlyas Tapdığın.

Güvənib əqlinə, işə, əməyə,
Kimsəni çağırmaz gəlsin köməyə.
Haqqın var Fəxrəddin, belə deməyə
Zirvəsi qar olar vüqarlı dağın,
Bəyaz saçları tək İlyas Tapdığın.

**Konfrans: Uşaq ədəbiyyatımızın İlyas Tapdığı**

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "Uşaq ədəbiyyatımızın İlyas Tapdığı" adlı konfrans da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, müəllimlərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı İlyas Tapdıqla ilə bağlı kitabxana rəhbərliyinin, şairin yaradıcılığı ilə yaxından tanış olan ədəbiyyatşünasların, yazıçı və şairlərin, müəllimələrin, çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

Giriş hissə (İlyas Tapdıq haqqında məruzə)

2. İlyas Tapdığın haqqında kitabxana rəhbərliyinin, yazıçı və şairlərin çıxışları

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların "İlyas Tapdıqla" ilə bağlı məruzələri

4. Konfransın yekunu

**Müdiriyyət:**Səməd Vurğun, Osman Sarıvəlli, Rəsul Rza, Nəbi Xəzri, Hüseyn Arif və digər tanınmış şairlər onun haqqında dəfələrlə xoş sözlər, maraqlı fikirlər söyləmişlər. Azərbaycanda və keçmiş ittifaq ölkələrində keçirilən bir sıra müsabiqə və festivalların laureatı olmuş şair müxtəlif nəşriyyatlarda, Televiziya və Radio Verilişləri Komitəsində işləmişdir.1992-95-ci illərdə Türkiyədə yaşayan şair qardaş ölkənin ədəbi, ictimai həyatında fəal iştirak etmişdir. 1994-cü ildə onun 60 illik yubileyi Ankarada Türkiyə Elm, Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyi (İLESAM) tərəfindən təntənəli şəkildə qeyd edilmişdir. Yubileydə xalq şairləri Bəxtiyar Vahabzadə, Nəbi Xəzri və digərlərinin Bakıdan göndərdikləri təbrik məktubları alqışlarla qarşılanmış, Türkiyə sənətçiləri onun şərəfinə nəğmələr ifa etmişdilər.

**I Məruzəçi:**İlyas Tapdıq eyni zamanda Azərbaycanda aşıq sənətinin inkişafındakı əvəzsiz fəaliyyəti ilə də seçilmişdir. Bu sənətə aşkar biganəlik hökm sürdüyü dövrlərdə məhz onun şəxsi qayğısı və təşəbbüsü hesabına televiziya və radioda, qəzet və jurnallarda aşıqlar, saz ifaçıları təbliğ olunmuşdur. Dünyanın bir çox ölkələrində (Rusiya, Belarus, Qırğızıstan, Türkmənistan, Estoniya, Litva, Polşa, Çexiya) şeirləri nəşr olunan şair həm də mahir tərcüməçi kimi tanınmışdır. Keçmiş ittifaqın məşhur ədəbi simaları onu xüsusilə sovet uşaq poeziyasının öncül, görkəmli xadimləri sırasında dəyərləndirmişlər.

**II Məruzəçi:**İlyas Tapdıq 50 kitabın müəllifi, mindən çox kitabın redaktorudur. Müxtəlif tədbirlərdə iştirak və çıxışlar edərək ilhamı ilə baş-başa olan şairin zaman-zaman nəşr olunmuş «Bulaq başında», «Gözlər», «Bir eşqin şimşəyi», «Arxalı dağlar», «Əksim və qəlbim», «Meşənin mahnısı», «Qızlar, qağayılar», «Özümlə görüş», «Məhəbbət yolları» və s. kitabları oxucular və ədəbi mühit tərəfindən maraqla qarşılanmışdır. Müdriklik çağlarını yaşayan şairin uşaqlar və böyüklər üçün yazdığı onlarla şeirinə nəğmələr qoşulmuşdur. Bunlarla yanaşı, müəllifin «Gədəbəydədir», «Dağlar, sizə baş əyməyə gəlmişəm», «Qoşqar», «İndi Gədəbəyin yaxşı vaxtıdır», «Sazda ana laylası var», «Dağların», «Meşəbəyi», «Mən bu günü başqa günə qatmaram» və s. şeirlərini aşıqlar on illərdir ki, ifa etməkdədirlər.

**III Məruzəçi:** Aşıq-şair Vəli Miskinli, aşıq Şəmşir, Mikayıl Azaflı, Hüseyn Saraclı, Əhməd Sadaxlı, aşıq Kamandar, aşıq İsfəndiyar, aşıq İmran, aşıq Əkbər, aşıq Sayad, aşıq Məlik, aşıq Ədalət və daha neçə-neçə saz-söz ustaları şairlə birgə ziyalı məclislərinə, el şənliklərinə şuxluq, təravət gətirmişlər. Adları qeyd olunan və qeyd olunmayan onlarla sənət fədaisi aşıq sənətinə dəyər verən İlyas Tapdıqla birgə

olmaqdan zövq almışlar. Çünki o, istər televiziyada, istərsə də müxtəlif ədəbi yığıncaqlarda saz-söz ustadlarına ürəkdolusu meydan açmışdı. Aşıqların könlü onun şeriyyətində, saza vurğunluğunda, təəssübkeşliyində olduğu kimi, şairin də könlü aşıqların sazında olmuşdur. Ürəyi sazla avazlaşan, sazla isinən şair bunu “O sazı çal, o sazı...” şeirində belə ifadə etmişdir:

O sazdadır ürəyim,
Bağrına bas o sazı.
Götür sinən üstünə!
Bala-bala sən məni
Qarışdır öz tüstünə.

**IV Məruzəçi:** Yazıçı, ədəbiyyatşünas, professor Mir Cəlal Paşayev: «Azərbaycan oxucusu İlyas Tapdığı səmimi, səmərəli lirik şeirləri ilə tanıyır. Onun şablondan, çılpaq təbliğatdan uzaq - orijinal və şairanə tematikası vardır. Doğma yurdun insanları, təbiəti və gözəlliyi... şairin təmiz hisslərinin vəhdəti ilə ifadə olunur. İlyas Tapdığın şeirlərinin başlıca xüsusiyyəti təbiilik və səmimiyyətdir. O nədən yazırsa yazsın, mövzunu poetikləşdirməyi bacarır».

**V Məruzəçi:** Xalq şairi Süleyman Rüstəm: «İlyas Tapdıq təzə söz deməyə, öz oxucularını düşündürməyə səy edən istedadlı şairdir. İlyas Tapdıq çox gözəl bilir ki, tələbkar oxuculara, bədii cəhətdən kamil, rəngarəng boyalarla müzəyyən (bəzəkli - red.) zəmanəmizin nəbzilə vuran, ürəklərə yol tapan şeirlər gərəkdir. İlyas Tapdıq axtarışdadır».

**VI Məruzəçi:** Xalq şairi Bəxtiyar Vahabzadə: «İlyas müəllimin xarakterindəki gözəl əlamətləri - təvazökarlığını, nəcibliyini, başqa şair dostlarının qələbəsinə sevinməsini qeyd etmək istəyirəm. İlyas heç zaman özünü gözə soxmağa çalışmır. Başını aşağı salıb öz mütəvaze işi ilə məşğuldur. İlyas verdiyindən danışmaz, amma aldığını dönə-dönə təkrar edər. Allahın ona verdiyinə o, hər zaman şükran olmuşdur. Ona görə də yazır:
Görüb vurulmağa mənə göz verib,
Ana təbiətə təşəkkürüm var.
Bizim də onun təşəkkürünə təşəkkürümüz var...»

Xalq yazıçısı Süleyman Rəhimov: «Mən çoxlarına deyirəm ki, yazma.

Amma İlyasa sən yaz, deyirəm. Sənin yaxşı gələcəyin var».

**VII Məruzəçi:** Xalq şairi Hüseyn Arif: «İlyas Tapdığın misrası («Bənövşə xatirinə kol dibinə iz düşdü») yazdırıb bu şeiri mənə:

Meh toxunar üzlərinə,
Nur ələnər gözlərinə.
Kol dibini özlərinə,
Məskən seçər bənövşələr.
İlyasın hər şeir kitabı bir dəstə bənövşəyə oxşayır - təzə-tər, ətirli. Şeirlərində hər söz, hər misra ürək kimi çırpınır».

Xalq şairi Məmməd Araz: «Ötən yüzillikdə uşaq ədəbiyyatı sahəsində iki yazıçımızın gərgin əməyini xüsusilə qeyd etmək istərdim. Bunlardan biri adı dillər əzbəri olan Abdulla Şaiqsə, ikincisi onun zəngin ənənəsini davam etdirən, bu sahədə xeyli uğurlu əsərlər müəllifi kimi tanınan İlyas Tapdıqdır».

**VIII Məruzəçi:** Akademik Bəkir Nəbiyev: «Peşəkar uşaq ədəbiyyatımızın banisi və ən məhsuldar nümayəndəsi, bu ədəbiyyatın bir sıra klassik nümunələrinin yaradıcısı Abdulla Şaiqdən sonra bu sahədə çalışanlardan üçünün Azərbaycan uşaq ədəbiyyatında özünəməxsus yeri var: Xanımana Əlibəyli, Teymur Elçin və İlyas Tapdığın».

Xalq şairi Zəlimxan Yaqub: «İlyas Tapdığın «Şeir sevən balalar» kitabı həcm və məzmun etibarı ilə ən sanballı kitabdır desəm, qətiyyən səhv etmərəm. İnanıram ki, bu kitab məktəbli balalarımızın, şeiri çox sevən körpələrimizin ən sevimli kitabı kimi zaman-zaman oxunacaq. Dərslik kitablarımız bu kitabda nəşr olunan rəngarəng, duru, təravətli şeirlərin hesabına daha da zənginləşəcək:

Sözü çiçəklərin dadında qalan,
Eşqi baxışların odunda qalan,
Şeiri Zəlimxanın yadında qalan,
Nəfəsi Allaha xoş gələn kişi».

İlyas Tapdıq şeirlərinin mövzusu Azərbaycan torpağı, onun ecazkar təbiəti, dünyanı heyran edən zəngin yeraltı, yerüstü sərvətləri, müdrik el qoşmaları, bayatıları ilə çox təmasdadır. Bir çox şeirləri folklor nümunələrini xatırladır.

"İlyas Tapdıq uşaq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri idi. Hətta böyüklər üçün də koloritli, seçilən əsərləri var. Şeirləri dərsliklərə düşüb. İlyas Tapdığı uşaqların dilində əzbər olan son dərəcə dəyərli şeirlərin müəllifi kimi tanıyırıq. Uşaqlar üçün yazmaq çox çətindir. İlyas Tapdıq qələmi isə bu sahədə qələbə çalıb. Eyni zamanda, gözəl redaktor olub. Uzun müddət baş redaktor işləyib.

İlyas Tapdıq poeziyası haqqında danışarkən deyiləcək ilk sözlərdən biri odur ki, bu poeziya böyük mənada müşahidələrə əsaslanır. Bu, təkcə şair müşahidəsi deyil, dünyanı, həyatı, insanları yaxından tanıyan, uzun illərin təcrübəsini qazanmış qocaman insanın baxışlarıdır. Amma o, yenə də məsələyə təvazökarlıqla yanaşır:

Az da olsa görmüşəm dünyanı,
Həyatda ölüm də görmüşəm,
Olum da görmüşəm...

Həyatı da, ölümü də görən, dünyanın, insanların hər üzünü müşahidə edib öyrənən müəllif bu kiçik şeirin sonunda bildiklərini ümumiləşdirir, insan oğluna müdrikliklə nəsihət edir:

Toxuyublar torpaq ilmə-ilmə;
Uçurumdur
Ömrün dörd yanı,
Büdrəmə, əyilmə!

İlyas Tapdığın bütün poeziyası Vətənlə, ana torpaqla, ulu xalqımızla bağlıdır. O, uca səslə deyir: “Şeirimin canıdır bu el, bu Vətən!

Bu gün də İlyas Tapdıq və onun kimi sənətkarlarımız sevilərək oxunur, ehtiramla yad edilir, xatirələri əbədi yaşayır. Onların yaratdıqları nadir sənət əsərləri var olduqca isə yaşamağa davam edəcəklər!

**Ədəbiyyat siyahısı:**

**Kitabları**


Seçilmiş əsərləri. C. 1. - Bakı : Şur, 2009. - 600 s.

Seçilmiş əsərləri. C. 2. - Bakı : Şur, 2010. - 672 s.

Bir evim var. - Təkrar nəşr, 1970-cu ilin nəşri əsasında. - Bakı : Renessans-A, 2017. - 8 s.

Hər kim yüz il yaşamasa : gədəbəyin 100 yaşlıları. - Bakı : Çaşıoğlu, 2007. - 120 s.

Köşək : poeziya. - Bakı : Turan Nəşrlər Evi, 2010. - 24 s.

Sinifdənxaric oxu : birinci, ikinci, üçüncü və dördüncü siniflər üçün. - Bakı : Turan Nəşrlər Evi, 2003. - 236 s.

Şeir sevən balalar : şeir və poemalar. - Bakı : Turan Nəşrlər Evi, 2005. - 527 s.

**Əsərləri dövri mətbuatda**

Ay niyə qaçır? ; Dəmir ağacı ; Kirpi və b. şeirlər // Tumurcuq. - 2012. - № 1. - S. 12.

Bir də gördüm ; Yazmışam ; Nə qaldı və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2016. - 7 may. - № 17. - S. 28.

Bir gözəl görüşün həsrəti // Mədəni Həyat. - 2013. - № 10. - S. 58-60.

Bir şəhiddir ürəyim ; Bənövşələndi ; Məndə ; Məni : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 42.

Bu sarı çəpiş ; Dəmirağac ; Sevil küsüb : şeirlərin əvvəlində uşaq yazıçısı İlyas Tapdıqın yaradıcılığı haqqında məlumat verilmişdir // Göyərçin. - 2014. - № 11. - S. 6-7.

Elçinin telegörüşündə : şeir // Ədəbiyyat qəzeti. - 2013. - 17 may. - № 18. - S. 6.

Əziz bir insanı xatırlayarkən... : Mir Cəlal haqqında düşüncələr // Yada düşdü. - 2013. - № 3. - S. 20-30.

Fıstıq : şeir // Tumurcuq. - 2013. - № 11. - S. 8.

Xudu sazı // Mədəni Həyat . - 2014. - № 11. - S. 44-45.

İndi o zarafatlar da uzaqdadır... : Aşıq Şəmşir - 120 // Mədəni Həyat. - 2013. - avqust. - № 8. - S. 70-72.

Keçən keçdi, olan oldu deməyin : İslam Sadıq - 60 // Ulduz. - 2014. - № 3. - S. 54-55.

Kim görüb qabanı ; Yarpaq açmadı ; Cücə cücəni döydü və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 20 fevral. - № 11. - S. 12.

Kitabxanada ; Kitablar : şeirlər // Göy qurşağı. - 2021. - № Xususi Buraxılış. - S. 36.

Qəlbində Qarabağ dərdi... : Şövkət Horovlunun "Ürəyim dan yeridi" şeirlər toplusu haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 18 fevral. - № 6. - S. 6.

Mən uşaq şairiyəm, uşaqlar ürəyimdir : İlyas Tapdıq - 80 : şair İlyas Tapdıq ilə müsahibə / söhbətləşdi S. Məlikzadə // Tumurcuq. - 2014. - № 11. - S. 9.

Müəllimi unutmuruq : şeir // Savalan. - 2011. - iyun. - № 36/37. - S. 4.

Nəvələr şirin olur ; Məni yelləndir ; Aygül kimi çox sevir? // Savalan. - 2012. - 24-26 yanvar. - № 4. - S. 3.

Ömrümə yazılan illər : Nahid Hacızadə haqqında // Yada düşdü. - 2018. - № 1. - S. 28-30.

Sənət bağçasına yol eldən gəlir : şair İlyas Tapdıq ilə müsahibə / söhbətləşdi S. Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2014. - 11 iyul. - № 26. - S. 1, 8-9.

Şair dostum Məmməd Arazın məktubları // Yada düşdü. - 2012. - № 3. - S. 33-39.

Şanlı ömrün əfsanəsi : Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadəyə həsr olunmuş şeir // Savalan. - 2010. - 7-13 may. - № 27/28. - S. 6.

Ürəyimin gizli dostu ; İndi Gədəbəyin yaxşı vaxtıdır ; Sazda ana laylası var və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2014. - 16 may. - № 18. - S. 14.

Vurğunsuz yaşadı Vurğun ömrünü : Osman Sarıvəllinin xatirəsinə // Ədəbiyyat qəzeti. - 2010. - 9 iyul. - № 27. - S. 6.

Yaddaşlarda yaşamaq da bir ömürdür : Elxan İbrahimov - 90 // Ədəbiyyat qəzeti. - 2011. - 16 sentyabr. - № 34. - S. 4.

**Haqqında Kitablarda**

Ensiklopedik toplu. - Bakı : Zaman, 1998. - 288 s.

**Əhmədova A.** Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Elm və Təhsil, 2012. - 120 s.

İlyas Tapdıq : biblioqrafiya. - Bakı : Zərdabi LTD MMC, 2015. - 248 s.

Mənalı ömrün salnaməsi : Bilqeyis xanım Məmmədova-Qarayeva haqqında xatirələr. - Bakı : Şərq-Qərb, 2017. - 128 s.

**Mustafayeva X.** Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Elm, 2011. - 292 s.

**Tapdıqova M**. Günəş-Ananur. - Bakı : Nurlan, 2010. - 116+8 s.

**Dövri mətbuatda**

Bənövşə ətirli sətirlər : **İlyas Tapdıq** haqqında // Göy qurşağı. - 2009. - № 6. - S. 4-5.

**Əlifov N**. Sözü çiçəklərin dadında qalan şair : İlyas Tapdıq - 85 // Savalan. - 2019. - 19-25 noyabr. - № 44. - S. 5.

**Həmid T**. Ayağa dur, dağlar səni gözləyir // Mədəniyyət. - 2008. - 30 avqust. - S. 10.

**Hüseynoğlu S**. Ana təbiətə təşəkkürüm var : şair İlyas Tapdıqın yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 7 may. - № 17. - S. 28.

İlyas Tapdıq **(1934-2016)** : nekroloq // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 19.

**İsabəyli Q**. Ədəbi imzalar bolluğunda ədəbi sima, İlyas Tapdıq : İlyas Tapdıq - 80 // Kaspi. - 2014. - 27 sentyabr. - № 158. - S. 19-20.

**İsabəyli Q**. İlyas Tapdıq - ədəbi imzalar bolluğunda ədəbi sima // Yada düşdü. - 2017. - № Yanvar-fevral-mart. - S. 70-74.

**Məlikzadə S**. Ustad haqqı qazanmış şair : İlyas Tapdıq haqqında // Kaspi. - 2019. - 23-25 noyabr. - № 217. - S. 20-21.

**Nadiroğlu E.** Ustad şair, hami redaktor : İlyas Tapdıq - 75 // Kaspi. - 2010. - 6 yanvar. - № 1. - S. 14.

**Nəcəfzadə Q**. Səhifələr : Uşaq ədəbiyyatındakı uşaq haqqında // Ədəbiyyat qəzeti. - 2011. - 15 aprel. - № 13. - S. 4. ; 22 aprel. - N 14. - S.4.

**Rzayeva G**. Çəmənlər sevinsin deyə... : İlyas Tapdıq // Mədəni Həyat. - 2013. - № 11. - S. 32-34.

**Sərvi S**. Ürəklərə yol tapanda... : İlyas Tapdığın yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2009. - 27 noyabr. - N 45. - S. 4.

Sizin sevimli şairiniz : İlyas Tapdıq-75 // Savalan. - 2009. - 24-30 noyabr. - № 52. - S. 8.

**Tanınmış şair** İlyas Tapdıq son mənzilə // Azərbaycan : qəzet. - 2016. - 27 dekabr. - № 288. - S. 6.

**Yusifli V**. Ömrün səksəninci yayı : tanınmış şairin 80 yaşı ərəfəsindəyik // Kaspi. - 2014. - 2 avqust. - № 134. - S. 14.

# Peşəkar uşaq ədəbiyyatımızın məhsuldar nümayəndəsi İlyas Tapdıq

**(metodik vəsait)**

**Komputer yığımı və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**